**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# 1960-1980-Cİ İLLƏR AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞININ ELMİ-NƏZƏRİ PROBLEMLƏRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Afət İlyas qızı Rəfiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Sumqayıt – 2021**

Dissertasiya işi Sumqayıt Dövlət Univeristetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya üzrə elmlər doktoru, dosent
**Məhəmmədəli Bayram oğlu Mustafayev**

Rəsmi opponentlər: Akademik, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

filologiya üzrə elmlər doktoru, professor
**Nizami Qasım oğlu Xəlilov**

filologiya üzrə elmlər doktoru, dosent
**Paşa Əli oğlu Kərimov**

Azərbycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: __________ Filologiya üzrə elmlər doktoru, professor
**Ramazan Salam oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: __________ Filologiya üzrə fəlsəfə doktoru,dosent
**Böyükxanım İbrahim qızı Eminli**

Elmi seminarın sədri: __________ Filologiya üzrə elmlər doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan ədəbi-nəzəri fikri M.F.Axundzadədən üzübəri öz ənənələrini yaradıb. Ədəbiyyatşünaslıq ədəbi-bədii təfəkkürün qaynaqlarını, əsas mərhələlərini, ayrı-ayrı ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığını, ədəbi mərhələlərin və dövrlərin tipologiyasını üzə çıxarmaqla, həm də özünü təsdiq edib, ədəbi-nəzəri meyarlarını müəyyənləşdirib, yaradıcılıq prinsiplərini, ədəbi-estetik dəyərlərini, elmi konsepsiyalarını ortaya qoyub. Ədəbiyyatşünaslıqda ədəbi prosesin öyrənilməsi bu gün ciddi vəzifə kimi qarşıya çıxır.

Azərbaycan ədəbiyyatşünaslığı milli ədəbi irsi tədqiqat predmeti kimi götürərkən həm Şərq, həm də Qərb ədəbi dəyərlərinin vəhdətindən çıxış etmək lazımdır. Xüsusən, Qərbi Avropa ədəbi-nəzəri fikrində sovet ədəbiyyatına və ədəbiyyatşünaslığına münasibətdə sırf ideoloji-siyasi amillər önə çəkilib. Mövzunun aktuallığını müəyyənləşdirən amillərdən biri bununla bağlıdır.

Bədii yaradıcılıq ədəbi-nəzəri fikir kimi öz zəngin ənənələrinə əsaslanır, eyni zamanda, məfkurə, milli şüur və azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Bu mənada 1960-80-ci illər ədəbi-nəzəri fikrin nailiyyətlərini, ədəbi yaradıcılıq axtarışlarını tədqiqata cəlb etmək, həm də milli şüur, milli düşüncə tarixini öyrənmək, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasını davam etdirmək və həyata keçirmək baxımından əhəmiyyətli tədqiqat vəzifəsinin gerçəkləşdirilməsidir.

Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərini tədqiq etmək 1960-80-ci illər ədəbi-nəzəri fikrinin qarşısında aktual bir vəzifə kimi dayanmışdı. Bu dövrün ədəbiyyatşünaslığı həmin vəzifənin öhdəsindən ləyaqətlə gəldi, bu sahədə əldə olunan nailiyyətləri möhkəmləndirməklə yanaşı, öz yeni ənənələrini yaratdı. Buna görə də ədəbi-nəzəri fikir 1960-80-ci illərdəki elmi axtarışlarını aşkara çıxarmaq, ümumiləşdirmək, elmi tarixini yaratmaq vacib bir ədəbiyyatşünaslıq məsələsi kimi qarşıda dayanır. Bu sahədə Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Mir Cəlal Paşayev, Pənah Xəlilov, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Yaşar Qarayev, Şamil Salmanov,

Bəkir Nəbiyev, Akif Hüseynov, Seyfulla Əsədullayev, Əkbər Ağayev, Əkrəm Cəfər, Kamran Məmmədov, Abbas Zamanov, Qulu Xəlilov, Feyzulla Qasımzadə, Tofiq Hacıyev, Xalid Əlimirzəyev, Orucəli Həsənov, Həmid Məmmədzadə, Məsud Əlioğlu, Asif Əfəndiyev, Qasım Qasımzadə, Vaqif Yusifli, İsa Həbibbəyli, Şirindil Alışanlı, Nizaməddin Şəmsizadə, Arif Səfiyev, Kamran Əliyev, Əhəd Hüseynov və başqaları ciddi elmi axtarışlar aparmışlar.

Şirindil Alışanlı "Azərbaycan ədəbiyyatşünaslığının nəzəri-metodoloji problemləri" (2011) mövzusunda doktorluq dissertasiyasında problemə daha çox nəzəri aspektdən yanaşmış, 1960-80-ci illər ədəbi-nəzəri fikrinin klassik və müasir ədəbi irs nəzəriyyəsinin özünəməxsus cəhətləri, spesifik xüsusiyyətləri haqqında konkret fikir bildirmiş, həmin dövrdə ədəbiyyatşünaslığın qarşısına çıxan çətinlikləri, ədəbi fikrin çağdaş meyar axtarışlarını, fundamental tədqiqat texnologiyalarını diqqət mərkəzində saxlamışdır.

Eləcə də Ş.Salmanovun "Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri" (1996) adlı doktorluq dissertyasiyasında, N.Şəmsizadənin "Azərbaycan ədəbiyyatşünaslığı" (1997), "Tənqidin ədəbi prosesdə rolu" (2004), "Ədəbi proses və ədəbi nəsil" (2008, həmmüəlliflə) monoqrafiyalarında tədqiq etdiyimiz dövrdən müəyyən qədər bəhs olunub.

Bundan başqa, Nurlana Əliyevanın "60-80-ci illər Azərbaycan nəsrinin qəhrəman və üslub axtarışları" (2003) mövzusunda doktorluq, Qüdrət Mirzəyevin "Əkbər Ağayevin ədəbi-tənqidi görüşləri" (1998), Sara Osmanlının "Проблемы эволюции азербайджанского сравнительного литературоведения" mövzularında namizədlik dissertasiyalarında məsələnin həlli qismən öz əksini tapmışdır. Lakin dövrün sistemli araşdırılması aparılmamış, bu sahədə xeyli boşluq hiss olunur.

**Tədqiqatın obyekti və predmeti.** 1960-80-ci illərdə Azərbaycan ədəbiyyatşünaslığında aparılan elmi-tədqiqat işləri, monoqrafik araşdırmalar, dövrün aktual ədəbi-nəzəri problemlərinə həsr olunmuş elmi məqalələr, ədəbi tənqid materialları dissertasiyanın obyektini təşkil edir.

Ədəbi-tarixi prosesin qanunauyğunluqlarının öyrənilməsi, ədəbi-mədəni dəyərlərə nəzəri fikrin yanaşma metodolgiyası, klassik irsə müasir elmi baxış və monoqrafik təhlil, bədii-estetik dəyərlərin elmi-nəzəri aspektdə müəyyənləşdirilməsi və s. məsələlər tədqiqatın predmentinə daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan ədəbi-nəzəri fikrinin 1960-80-ci illər mərhələsinin müasir ədəbi prosesi, klassik ədəbi irsi tədqiq etmək, bədii düşüncə faktorunun ədəbi-nəzəri fikirdə öyrənilməsinin tarixini izləmək, milli ədəbi dəyərlərin ümumbəşəri məzmununu üzə çıxarmaq tədqiqat işinin əsas məqsədlərindən biridir. Müxtəlif ədəbi nəzəriyyələri, elmi-metodoloji dəyərləndirmələri sistemləşdirmək, ona tarixi dəyər vermək, ayrı-ayrı tədqiqatçıların klassik və müasir ədəbi irslə bağlı araşdırmalarını ümumiləşdirmək, ədəbi tərbiyənin qanunauyğunluqlarını aşkara çıxarmaq, ədəbi-nəzəri fikrin tədqiqat metodologiyasını müəyyənləşdirmək dissertasiya işinin məqsədidir.

Dissertasiya işində aşağıdakı tədqiqat vəzifələri yerinə yetirilmişdir:

– 1960-80-ci illər ədəbi-nəzəri fikrinin müasir və klassik ədəbi irs konsepsiyalarını müəyyənləşdirmək, onun tarixini yeni ədəbiyyatşünaslıq meyarları ilə tədqiq etmək;

– Azərbaycan ədəbiyyatı tarixinin ayrı-ayrı dövrlərinin milli şüurun inkişafında, istiqlal və azadlıq ideyalarının meydana çıxmasında oynadığı rolun ədəbi-nəzəri fikirdəki dərkinə aydınlıq gətirmək;

– sovet tənqid və ədəbiyyatşünaslığının klassik və müasir irs təlimininin siyasi kontekstini müəyyənləşdirmək;

– Azərbaycan ədəbiyyatının müxtəlif mərhələlərinə, o cümlədən 1960-80-ci illərin ədəbi prosesinə siyasi amillər əsasında yanaşan sosialist realizmi estetikasının ədəbi konsepsiyasındakı yanlış müddəaları göstərmək və ədəbi irsin tədqiqindəki nöqsanları aşkara çıxarmaq;

– ədəbi-nəzəri fikrin 1960-80-ci illər mərhələsinin başqa ədəbi mərhələlərlə oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, bu zəmində milli tənqid ənənələrini tədqiq etmək.

**Tədqiqat metodları.** Dissertasiya işində həm ümumelmi, həm də sırf ədəbiyyatşünaslıq metodlarına müraciət olunub. Ümumelmi metodlardan əsas etibarilə təhlil, təsvir, induksiya və sintezdən, ədəbiyyatşünaslıq metodlarından isə mədəni-tarixi, tarixi-müqayisəli metodlardan isifadə olunub.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. 1960-80-ci illər Azərbaycan ədəbi-nəzəri fikrinin metodoloji axtarışları, ədəbi irsi qiymətləndirmə meyarları aşkara çıxarılır;
2. 1960-80-ci illər ədəbi prosesində ədəbi tənqidin rolu və vəzifələri aydınlaşdırılır;
3. Milli ədəbi fikrin ənənələrini ardıcıl izləməklə bu aspektdə 1960-80-ci illər ədəbiyyatşünaslığının elmi nailiyyətləri müəyyənləşdirilir;
4. Tədqiq edilən mərhələdə klassik və müasir ədəbi irs konsepsiyalarına münasibət ifadə edilir;
5. 1960-80-ci illərdə yeni ədəbiyyat tarixlərinin meydana çıxmasını şərtləndirən amillər təyin edilir və konkret nümunələr əsasında milli ədəbiyyat tarixi konsepsiyalarına elmi münasibət formalaşdırılır;
6. Ədəbi-nəzəri fikirdə tarixilik və müasirlik kateqoriyalarına yanaşma prinsipləri aşkarlanır və 1960-80-ci illər ədəbi-nəzəri fikrində həmin ədəbiyyatşünaslıq problemlərinə münasibətin mənzərəsi göstərilir;
7. Ədəbi-fəlsəfi və bədii-estetik dəyərlərin elmi-nəzəri təhlili ümumiləşdirilir.

**Tədqiqatın elmi yeniliyi.** Ədəbi-nəzəri fikir XIX-XX yüzilliklərdə öz potensial imkanlarını gerçəkləşdirib, ədəbi-nəzəri bazasını yaradıb. XX əsrin son onilliyində Azərbaycanın müstəqillik əldə etməsində bədii düşüncə faktorunun da əhəmiyyəti böyükdür. Şübhəsiz ki, milli bədii irsdə müstəqillik düşüncəsinin formalaşmasında ədəbi-nəzəri fikrin də rolu var. Birmənalı olaraq qəbul edilir ki, 1960-80-ci illər ədəbi-nəzəri fikri bu prosesin mühüm tərkib hissəsidir. Dissertasiya işində ilk dəfə olaraq:

- Ədəbiyyatşünaslığın elmi-nəzəri bazasının 1960-80-ci illər mərhələsinin elmi axtarışları sistemləşdirilmiş, mərhələ təsnifatı

verilmiş, ədəbi tənqid və ədəbi-nəzəri fikrin müasir elmi texnologiyaları müəyyənləşdirilmişdir.

- 1960-80-ci illər Azərbaycan ədəbiyyatı tarixi, ədəbi tənqid tarixi, ədəbiyyat nəzəriyyəsinin təşəkkül və formalaşma tarixi problemləri sistemli şəkildə tədqiqata gətirilmişdir.

- 1960-80-ci illər Azərbaycan ədəbiyyatşünaslığının simaları hesab olunan M.Arif, M.C.Cəfərov, Ə.Mirəhmədov, K.Talıbzadə, Y.Qarayev, Ş.Salmanov, B.Nəbiyev və başqalarının elmi irsləri müasir ədəbi-tarixi proses kontekstində tədqiqat predmeti seçilmiş, onların ədəbi-nəzəri fikirdə iştirakları ictimai-mədəni mühit amili ilə vəhdətdə üzə çıxarılmışdır.

- Ədəbiyyatşünaslığın qeyd edilən mərhələsinin ümümşərq, ümumislam ədəbi-fəlsəfi kontekstindən müasir tipli Avropa bədii təfəkkürünə doğru inkişaf etməsinin elmi-nəzəri fikridə necə dərk olunması kompleks və sistemli şəkildə tədqiqat mərkəzinə gətirilmiş, ədəbiyyatşünaslığın formalaşmasına Qərb mədəniyyətinin, o cümlədən Avropa maarifçi realist ədəbiyyatının, rus ictimai-mədəni mühitinin təsiri kifayət qədər aydınlaşdırılmış, Yaxın və Orta Şərq müsəlman mədəniyyətinin, ümumtürk bədii və elmi təfəkkürünün 1960-80-ci illər ədəbiyyatşünaslığında təzahürləri konkret faktlar əsasında öyrənilmişdir.

- Dissertasiya işində ancaq 1960-80-ci illər ədəbi-nəzəri fikrinin nailiyyətləri aşkara çıxarılmaqla kifayətlənilməmiş, ədəbi-tarixi prosesə bizim bugünkü münasibətimiz də öz əksini tapmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Azərbaycan ədəbi-nəzəri fikir tarixinin ayrı-ayrı mərhələlərinin, müasir ideya-estetik istiqamətlərinin ədəbiyyatşünaslıqda öyrənilməsi, yeni tədqiqat konsepsiyası və ideyaları dissertasiya işinin nəzəri əhəmiyyətini təşkil edir. Dissertasiya işindən ədəbiyyatşünaslıq tarixini, onun inkişaf mərhələlərini tədqiq edən mütəxəssislər, tələbələr, ali məktəb müəllimləri faydalana bilər. Həmçinin dərs vəsaitlərinin, monoqrafiyaların, metodik vəsaitlərin, kurs işlərinin və s. hazırlanmasında da bu tədqiqat işindən istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işində əldə edilən elmi nəticələr, dissertasiya işinin əsas məzmunu, tədqiqat nəticələri

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda və müxtəlif xarici ölkələrin müvafiq nüfuzlu jurnal və elmi məcmuələrində nəşr olunmuş elmi məqalələrdə, iddiaçının beynəlxalq konfranslarda çıxış və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş 8 səhifə, I fəsil 43 səhifə, II fəsil 35 səhifə, III fəsil 42 səhifə, Nəticə 6 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı 13 səhifə. Dissertasiya işi ümumilikdə 149 səhifə, 271 505 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın birinci fəsli **"Milli ədəbi tənqid konsepsiyasının formalaşması və yeni ənənələri"** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. **"XX əsrin 60-80-ci illərində Azərbaycan ədəbi-nəzəri fikri"** adlanan birinci yarımfəsildə 1960-80-ci illərin ədəbi mühiti haqqında tədqiqatlar yer almışdır. Məhz bu illərdə sovet cəmiyyətində siyasi rejimin nisbətən demokratikləşməyə meyil göstərməsi, siyasi və ədəbi bəraətlər ədəbi prosesdə xeyli canlanma yaratdı. A.İ.Soljenitsının "Qırmızı təkər", B.L.Pasternakın "Doktor Jivaqo" romanları, A.P.Platonovun, M.A.Bulqakovun o

dövr üçün yeni olan əsərləri tədqiq olunan mərhələ vahidində yazılıb.

Təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatında İsa Hüseynovun "Yanar ürək", "Saz", İsmayıl Şıxlının "Dəli Kür", Sabir Əhmədovun "Dünyanın arşını", "Aran", Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır" əsərləri də yeni dövrün diqtəsi ilə meydana çıxıb. Ədəbiyyatda "yeni nəsil" kimi səciyyələndirilən Anarın, Elçinin, Hüseyn Arifin, Əli Kərimin, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, İsa İsmayılzadənin və başqalarının yaradıcılığı da həmin dövrə təsadüf edir: *"Zaman-zaman qurultaylarda tənqid atəşinə tutulan, suçlanan şairlər, yazıçılar üçün Stalin dövrü yeni keyfiyyətdə və yeni prinsiplərlə davam edirdi. "İcazə verilmiş" cəsarət mizanına münasibət də fərqli idi. Və bu prosesdə Ç.Aytmatovun, F.İskəndərin, T.Pulatovun, Anarın, Ə.Əylislinin, Elçinin, N.Dumbadzenin, O.Çiladzenin... ədəbi yarayışları dövrün ziddiyyət və paradokslarının ifadəsi olmaqla yanaşı, sovet dövrünün böhran çağının ədəbiyyat, mənəviyyatı idi"*[1].

Bu dövr ədəbi-nəzəri fikrinin ən parlaq səhifəsi üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi" (1957-1960), ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin (1967) çap olunmasıdır. Hər iki əsər 1940-cı illərdə nəşr olunan ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"ndən (1943-1944) sonra işıq üzü görən fundamental ədəbiyyat tarixidir. Lakin marksist ədəbiyyatşünaslığın ilk ədəbiyyat tarixi olan "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" də Azərbaycanın SSR-nin siyasi rəhbərliyi tərəfindən yaxşı qarşılanmadı, dərsliyin redaktorları və müəllifləri 1950-ci illərdə haqsız hücumlara məruz qaldı.

Ancaq yeni ədəbiyyat tarixinin redaksiya heyəti Səməd Vurğun, Mirzə İbrahimov, Məmməd Arif Dadaşzadə, redaktorları Məmməd Arif Dadaşzadə, Əziz Mirəhmədov, Əli Sultanlı, Kamal Talıbzadə, Həmid Araslı, Mirzağa Quluzadə, Məmməd Cəfər Cəfərov bu işin öhdəsindən layiqincə gələrək, mükəmməl üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957-1960) yazılmasına və

[1] Nərimanoğlu, K.V. "Sovet ədəbiyyatı": Gerçəkliklər, həqiqətlər, ziddiyyətlər. // – Bakı: Azərbaycan jurnalı, – 2009. №8, – s.164.

nəşrinə nail oldular.

1960-cı illərə qədər mövcud olan ədəbiyyat tarixlərinin hər biri bugünkü ədəbiyyatşünaslın tədqiqat obyektidir. Növbəti ədəbiyyat tarixlərinin yaranmasında onların mühüm əhəmiyyəti olub. 1950-ci illərin sonu, 1960-cı illərin əvvəllərində işıq üzü görən üçcildlik ədəbiyyat tarixi isə nisbətən nöqsanlardan uzaqlaşa bilmişdi. Ən mühüm cəhət bu idi ki, üçcildlikdə kifayət qədər ədəbi-tarixi materiallar dövrün ədəbiyyatşünaslıq elminin standartları baxımından yüksək elmi-nəzəri səviyyədə təhlil olunmuş, ədəbiyyat tarixi faktoruna çevrilmişdi. *“Hər bir ədəbiyyat tarixinin mükəmməlliyi, birinci növbədə, orada istifadə olunan tarixi-ictimai, elmi-ədəbi materialın zənginliyindən və yaxşı öyrənilməsindən aslıdır. Əgər tədqiq edilən tarixi dövrün ictimai-siyasi vəziyyəti yaxşı öyrənilməmişsə, bu və ya digər ədəbi hadisə və sənətkarlar haqqında lazımi monoqrafiyalar yaradılmamışsa, həmin dövrün ədəbiyyatını hərtərəfli öyrənmək, elmi tarixini yazmaq da çətin olacaq. Buna görədir ki, inqilabdan əvvəlki ədəbiyyatşünaslar Azərbaycan ədəbiyyatının tarixini yaratmaq məsələsinə girişməmiş, bu iş üçün ancaq hazırlıq aparmışdılar”*[2].

Birinci cilddə Azərbaycan ədəbiyyatının qədim və orta əsrlər dövrü, xüsusən, Ə.Xaqani, N.Gəncəvi, Ə.Təbrizi, İ.Nəsimi, M.Əhvədi, Ş.İ.Xətayi, Həbibi, M.Füzuli, S. Təbrizi və başqalarının həyat yaradıcılığı, onların mənsub olduğu təriqətlərin ictimai-fəlsəfi konsepsiyası hərtərəfli şəkildə ədəbiyyat tarixinə gətirilir.

Cilddə zəngin folklor yaddaşımız, şifahi xalq yaradıcılığımız, xüsusən “Şəhriyar”, “Koroğlu” kimi məhəbbət və qəhrəmanlıq dastanlarımız haqqında konkret məlumatlar çatdırılır. Birinci cild M.V.Vidadi və M.P.Vaqifin həyat və yaradıcılığının təhlili ilə bitir. M.P.Vaqif yaradıcılığı orta əsrlər humanist poeziyasının potensial imkanlarının tükəndiyini göstərməklə yanaşı, həm də yeni dövr ədəbiyyatının ilk mərhələsi maarifçi-realist Azərbaycan ədəbiyyatının başlanğıcı demək idi.

---

[2] Azərbaycan ədəbiyyatı tarixi: [3 cilddə] / Red. hey.: H.M.Araslı, M.Y.Quluzadə, M.C.Cəfərov. – Bakı: Az.SSR EA, – c.1. – 1960. – s. 6.

Fikrimizcə, üçcildliyin ən mükəmməli ikinci cilddir. XIX əsr Azərbaycan ədəbiyyatı ilə bağlı olan bu cildin redaktorları Əli Sultanlı, Əziz Mirəhmədov və Kamal Talıbzadə olmuşdur. XIX əsrin əvvəllərindən XX əsrin iki onilliyini əhatə edən cilddə təxminən bir əsrlik milli ədəbiyyat tarixinin tipologiyası, bütöv bir ədəbi-tarixi epoxanın ədəbi istiqamətləri, Azərbaycan realizminin təşəkkülü və sonrakı inkişaf mərhələləri ədəbi-tarixi və nəzəri səpkidə ədəbi ictimaiyyətə çatdırılıb.

Ədəbiyyat tariximizlə yanaşı, milli mətbuat tariximiz də bu cilddə geniş aspektdə təhlil olunub. *"1830-cu ildə "Тифлисские ведомости" qəzetinə əlavə olaraq, həftədə bir dəfə "Татарские ведомости" adı ilə bir vərəqə nəşr edilməyə başladı... "Татарские ведомости"nin nəşrində Şərqi yaxşı bilən A.Bakıxanovun köməyindən çox istifadə edilirdi... "Татарские ведомости" bəzi Şərq ölkələrinə də göndərilirdi.. Buna görə də vərəqədə Şərq hökumətlərinə və islam dininə toxunan məqalə və qeydlər yox idi. "Татарские ведомости" nin ləğvindən doqquz il sonra 1841-ci ildə Tiflisdə rusca çıxan "Закавказский вестник"ə əlavə olaraq, yenə Azərbaycan dilində bir vərəqə nəşr olunmağa başladı. Bu vərəqənin də məramnaməsi eynilə "Tatarskie vedomosti"nin məramnaməsi kimi idi. Burada da hökumətin rəsmi qanun-qaydaları və ticarət xəbərləri dərc olunurdu"*[3].

İkinci cildin böyük bir hissəsi M.F.Axundzadə yaradıcılığı ilə bağlıdır. Həmin hissə akademik F.Qasımzadə tərəfindən çox mükəmməl işlənib. İkinci cilddə 1900-1917-ci illərin tarixi, mədəni xülasəsi də geniş aspektdə verilib.

Üçcildlikdə ən əhəmiyyətli məsələlərdən biri də demokratik mətbuata geniş yer verilməsidir. Bu istiqamətə daha çox diqqət yetirən müəlliflər C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.Şahtaxtlı, Ö.F.Nemanzadə kimi naşirlərin fəaliyyətini də yaddan çıxarmayıb, "Şərqi Rus", "Molla Nəsrəddin" kimi qabaqcıl mətbuat orqanlarının xalqın oyanmasındakı xidmətlərinə də işıq salmağa nail olublar.

---

[3]Azərbaycan ədəbiyyatı tarixi: [3 cilddə] / Red. hey.: Ə.A.Sultanlı, Ə.M.Mirəhmədov, K.A.Talıbzadə. – Bakı: Az.SSR EA, – c. 2. – 1960. – s. 20.

Üçcildliyin sonuncu – üçüncü cildi Azərbaycan ədəbiyyatının 1920-1960-cı illər dövrünü əhatə edir. Həmin cild Oktyabr sosialist inqilabının 40 illiyi münasibəti ilə 1957-ci ildə nəşr olunub, birinci və ikinci cildlər isə 1960-cı ildə işıq üzü görüb.

1943-1944-cü illərdə ədəbi dövriyyəyə buraxılan "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"ndən fərqli olaraq bu ədəbiyyat tarixində sənətkarlıq məsələlərinə daha çox yer verilib. Bu cəhətdən Əkbər Ağayevin fikirləri maraqlıdır: *"Nəşr olunmuş III cildin ümumi quruluşu, həcmi və əhatə dairəsi göstərir ki, bütünlükdə "Azərbaycan ədəbiyyatı tarixi" əvvəlkilərdən, xüsusilə iki cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"ndən əsaslı surətdə fərqlənəcəkdir. Ədəbiyyatımızın sovet dövrünə həsr olunmuş III cildin özünə gəldikdə, qeyd etmək lazımdır ki, indiyə qədər heç bir ədəbiyyat dərsliyində və ya tədqiqat xarakterli bir kitabda Azərbaycan sovet ədəbiyyatının müxtəlif məsələlərinin işıqlandırılmasına bu kitabda olduğu qədər geniş yer verilməmişdir"*[4]. Ədəbiyyat tarixinin sovet dövrünə həsr olunan hissəsi beş fəsli əhatə edir.

Onu da qeyd edək ki, üçcildliyin hər cildinin redaktorları və ümumi redaksiya heyətinə daxil olan alimlərin nüfuzu işin yüksək keyfiyyətindən xəbər verirdi.

1960-cı illərdə meydana çıxan "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin (1967) əsas əhəmiyyəti bunda idi ki, həmin ədəbiyyat tarixində yaxın onilliklərin ədəbi prosesi əhatə olunurdu.

Tədqiq etdiyimiz dövrdən danışarkən şəxsiyyət amilinə toxunmadan keçmək olmaz. Bu dövrü sözün bütün mənalarında Azərbaycan elminə qazandıran insan Ümummilli lider Heydər Əliyev idi. 1960-80-ci illər qəribə təzadlarıyla tarixin yaddaşına yazıldığı zamanlarda Heydər Əliyev sovetlər birliyinin od püskürən maşınından çəkinməyərək, Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyatı üçün əlindən gələni əsirgəməmişdi. Hər şeyin Moskva tərəfindən tənzimlənməsinə baxmayaraq, Heydər Əliyevin şəxsi

---

[4] Ağayev, Ə.M. Ədəbiyyat tarixi haqqında qeydlər // Ədəbiyyat və incənət – 1964, 24 oktyabr, – s. 1.

təşəbbüsü və geniş əlaqələri sayəsində Azərbaycanda yeni mətbuat orqanları və nəşriyyatlar yaradılır, kitab çapına diqqət artırılır, Azərbaycan ədəbiyyatının təbliği diqqət mərkəzinə çəkilirdi. Təkcə elə bir faktı xatırlamaq lazımdır ki, Heydər Əliyevin böyük nüfuzu və qətiyyəti sayəsində "*Azərbaycan ədəbiyyatı və incəsənətinin yeddi nümayəndəsinə bir neçə il ərzində SSRİ-nin ali təltifi sayılan Sosialist Əməyi Qəhrəmanı adı verildi*"[5]. Qeyd edək ki, bu imperiyanın yerli xalqların ədəbiyyat və incəsənət nümayəndələrinə münasibətdə yol verdiyi yeganə istisna hal idi.

Hesab edirik ki, tədqiq etdiyimiz dövrdə Ulu Öndərin Azərbaycan ədəbiyyatı qarşısında xidmətlərindən danışarkən dissident ədəbiyyatına da ayrıca diqqət ayrılmalıdır. Əvvəla, dissidentin yaşadığı ölkədə siyasi baxışları rəsmi hakimiyyətin fikirlərindən radikal şəkildə fərqlənən insan olduğunu nəzərə alsaq, sovetlər kimi sərt diktator hakimiyyətli bir dövlətdə dissident olmağın çətinliklərini anlamaq elə də mürəkkəb bir şey deyil. Çox maraqlıdır ki, 1970-80-ci illərdə H.Əliyevin hakimiyyətdə olduğu vaxtlarda heç bir ədəbi simaya belə ittiham irəli sürülməmişdi. Əslində sıradan görünən bu nöqteyi-nəzər Azərbaycan ədəbiyyatına Bəxtiyar Vahabzadə, Xəlil Rza, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov, Anar, İsa Hüseynov (Muğanna) və b. kimi nəhəngləri qazandırmışdır. O dövrdə bu sənətkarları hakimiyyətin "iti nəzər"indən yayındıran, onlara hamilik edən məhz Heydər Əliyev idi.

Bütün dövrlərdə ədəbi tənqid üç mühüm vəzifəni yerinə yetirir: birincisi, ədəbi prosesi izah etmək, onu qiymətləndirmək ədəbi prosesin qanunauyğunluqlarını üzə çıxarmaq; ikincisi, sənətin yaratdığı estetik və etik çərçivələri təbliğ etmək, oxucularda onlara dərin məhəbbət hissi oyatmaq; üçüncüsü, sənət hadisələrinin təhlili vasitəsi ilə həyatın zəruri fəlsəfi, sosioloji etik və estetik məsələlərini həll etmək. Ədəbi-estetik fikrin 1960-80-ci illər mərhələsinin elmi-nəzəri səviyyəsini bu üç meyarla qiymətləndirsək, deyə bilərik ki,

---

[5] Əliyev, H.Ə. Ədəbiyyatın yüksək borcu və amalı / H.Ə.Əliyev. – Bakı: Ozan, – 1999. – s. 6.

ədəbiyyatşünaslığımız ədəbi proses qarşısındakı vəzifələrini ləyaqətlə yerinə yetirib. Ədəbi prosesdə 1960-cı illər ədəbiyyatının – demokratikləşdirməyə doğru gedən ədəbiyyatın əsası 1950-ci illərin sonundan başlandığı kimi, ədəbiyyatşünaslıqda da yeniləşməyə bir qədər əvvəl təsadüf olunurdu.

Ədəbiyyatşünaslığımızda yeni dövrün nəfəsi M.C.Cəfərovun "Ədəbi düşüncələr" (1958), "Füzuli düşünür" (1959), "Hüseyn Cavid" (1960) ədəbi toplu və monoqrafiyaları ilə hiss olunmağa başladı. "Azərbaycan ədəbiyyatında romantizm" (1963), "Azərbaycan-rus ədəbi əlaqələri tarixindən"(1964), "Mütəfəkkirin şəxsiyyəti" (1966), ikicildlik "Seçilmiş əsərləri" (1973-74), üçcildlik "XIX əsr rus ədəbiyyatı tarixi" (1970-75) əsərləri isə həmin dövr ədəbiyyatşünaslığının elmi-nəzəri səviyyəsinin göstəricisi olmaq baxımından əhəmiyyətlidir.

1930-cu illərdən etibarən professional tənqidimizdə iki ədəbi şəxsiyyətin imzası daha tez-tez görünür – M.A.Dadaşzadə və M.C.Cəfərov. Ədəbiyyatşünas-yazıçı Mir Cəlal Paşayevin də yaradıcılığının "qızıl dövrü" 1960-80-ci illərə düşür. 1930-cu illərdən başlayaraq o, paralel şəkildə həm bədii yaradıcılıqla, həm də ədəbiyyatşünaslıqla sistemli məşğul olub.

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəsli **"Ədəbi tənqidin ədəbi prosesdəki rolunun artması"** adlanır. Keçən əsrin 1970-ci illərini ədəbi-nəzəri fikrin yeni mərhələsi kimi qəbul etmək olar. Bu illərdə ədəbi tənqidin təhlil mədəniyyəti xeyli yüksəlmiş, milli ədəbi-tarixi prosesin nəzəri-problem kateqoriyalar baxımından təhlili ön plana keçmişdi. Əsas yenilik isə bədii yaradıcılığın poetikasına, məzmununa diqqətin artmasında hiss olunurdu. Struktur, forma, məzmun dəyişikliyi, dinamik inkişaf ədəbi yaradıcılıqda olduğu kimi tənqiddə də güclənmişdi. Tənqid artıq özünü daha sərbəst hiss edir, ədəbi prosesə fəal şəkildə qoşulmağa imkan tapırdı.

Ədəbi-estetik fikrin təkamülünə, heç şübhəsiz, Sov.İKP MK-nin "Ədəbi-bədii tənqid haqqında" qərarı xüsusi təkan verdi. Qərarda müasir sovet tənqidinin vəzifələri belə müəyyənləşdirilirdi: *"Tənqidin vəzifəsi müasir bədii prosesin hadisələrini, meyillərini, qanunauyğunluqlarını dərindən təhlil etməkdən, partiyalılıq və*

*xəlqilik haqqında Lenin prinsiplərinin möhkəmləndirilməsinə hər vasitə ilə kömək göstərməkdən, sovet incəsənətinin ideya-estetik səviyyəsinin yüksəldilməsi uğrunda mübarizə aparmaqdan, burjua ideologiyasına qarşı ardıcıllıqla çıxış etməkdən ibarətdir”*[6].

Bu qərardan sonra tənqidin ədəbi prosesdəki mövqeyi xeyli dərəcədə gücləndirildi. Tənqidçilərin əsərlərin nəşrinə müvafiq imkan yaradıldı. Bunun nəticəsində ədəbi-nəzəri fikrə Y.Qarayev, Ş.Salmanov, A.Hüseynov, M.Əlioğlu kimi gənc tənqidçilər nəsli gəldi. Orta nəslin nümayəndələri K.Talıbzadə, B.Nəbiyev, P.Xəlilov, Q.Xəlilov da eyni həvəs və enerji ilə tənqidin yaradıcılıq axtarışlarında yaxından iştirak edirdilər. Şübhəsiz ki, ağsaqqal nəslin nümayəndələrindən Orucəli Həsənov, Məmməd Arif və Məmməd Cəfər bu dövrdə tənqidimizin ağsaqqalı missiyasını yerinə yetirirdilər. 1970-ci illərdə “Ədəbi proses” nümunələri nəşr olunmağa başladı. Gənc ədəbi qüvvələr sırasında R.Əliyevin, N.Cabbarovun, K.Vəliyevin, N.Şəmsizadənin, Ş.Alışanovun, S.Əsədullayevin, Q.Əliyevin, G.Əlibəylinin, A.Məmmədovun, V.Yusiflinin imzalarına daha tez-tez rast gəlmək olurdu.

1970-ci illər tənqidində həm elmi, həm də elmi-publisistik üslub üstünlük təşkil edirdi. Əgər Kamal Talıbzadənin, Seyfulla Əsadullayevin, Yaşar Qarayevin, Akif Hüseynovun, Şamil Salmanovun elmi irsində nəzəri təfəkkür faktoru güclü görünürdüsə, Məsud Əlioğlunun, Bəkir Nəbiyevin, Qulu Xəlilovun yaradıcılığında elmi-publisistik üslub üstünlük təşkil edirdi. Həmin dövrdə M.Arif xüsusi bir tənqid məktəbi yaratmışdır. Professional Azərbaycan tənqidinin yaranmasında M.C.Cəfərovun da xidmətləri çoxdur.

Qeyd etdiyimiz kimi, 1970-ci illərdə ədəbi tənqid artıq ədəbi prosesdə mövqeyini möhkəmləndirdi. Tənqidçilərimiz Moskvada, Leninqradda, Daşkənddə və başqa şəhərlərdə keçirilən konfranslarda, müzakirələrdə çıxışlar etdilər, beynəlxalq tənqid təcrübəsi ilə tanış oldular.

---

[6] Tənqid və yaradıcılıq prosesi (baş məqalə) // Ədəbiyyat və incəsənət. – 1978, 22 aprel, s. 5-7-8.

1980-ci illərdə Bəkir Nəbiyev də artıq professional tənqidçi kimi ədəbi-nəzəri fikrimizin əsas ağırlığını öz çiynində daşıyırdı. Ədəbi prosesin bütün sahələrində, ədəbiyyatşünaslıqda, ədəbi əlaqələrdə öz sözünü deyən Bəkir Nəbiyev müasir ədəbiyyatla yanaşı, N.Gəncəvi, M.Füzuli, Y.Əmrə, Aşıq Ələsgər yaradıcılığından da yazır, istənilən halda çağdaş tənqidin mövqeyindən çıxış edirdi.

1980-ci illər Azərbaycan ictimai-siyasi və ədəbi mühitində milli şüurun, milli təfəkkürün oyandığı, silkələndiyi bir dövrdür. Həmin illərdə tənqidin yeni nəslinin nümayəndələri A.Məmmədov, V.Yusifli, V.Quliyev, Ş.Alışanlı, N.Şəmsizadə və başqaları müasir həyat gerçəkliklərinin ədəbiyyata gətirilməsinin ədəbi faktlarına müraciət edir, ədəbiyyatımızın öyrənilməyən, tədqiqatdan kənarda qalan sahələrinin, ədəbi şəxsiyyətlərinin həyat və yaradıcılığına yeni nəzərlə baxırdılar.

Dissertasiyanın ikinci fəsli **"Ədəbiyyatşünaslığın nəzəri kateqoriyaları və müasir meyarları"** adlanır. İkinci fəsil iki yarımfəsildən ibarətdir. Dissertasiyanın ikinci fəslinin birinci yarımfəsli **"Ədəbi tənqid və ədəbiyyatşünaslıqda nəzəri istiqamətin güclənməsi"** adlanır.

Sov.İKP-nin "Ədəbi-bədii tənqid haqqında" 1972-ci il qərarı tənqiddə olduğu kimi milli ədəbiyyat tarixçiliyində də yeni mərhələnin başlanmasına imkan yaratdı. Ədəbiyyat tariximizin müxtəlif dövrlərinin, ədəbi mərhələlərin öyrənilməsinə, yaradıcılığının təbliği qadağan olunan şair və yazıçıların yazılarına, əlyazmalarına, arxiv materiallarına maraq artdı. M.C.Cəfərov, M.A.Dadaşzadə, B.Nəbiyev, K.Talıbzadə, Ə.Mirəhmədov, K.Məmmədov, M.Seyidov, X.Əlimirzəyev, Y.Qarayev, İ.Həbibbəyli, Ə.Ağayev, Q.Xəlilov, A.Hüseynov və başqaları müasir ədəbi prosesə fəal müdaxilə etməklə bərabər, ədəbiyyatşünaslığımızın fundamental problemlərinin öyrənilməsində öz töhfələrini verdilər.

1960-70-ci illərdə milli tənqid və ədəbiyyatşünaslıq nəzəri potensialını getdikcə artırdı. Nadir Məmmədovun "Mirzə Fətəli Axundovun realizmi" (1978) monoqrafiyası, Azərbaycan ədəbiyyatşünaslığında realizmin mərhələ təsnifatında mühüm rol oynadı.

Bunu da xüsusi olaraq vurğulamağa ehtiyac var ki, 1970-ci illərdə ədəbi-nəzəri fikirdə uşaq ədəbiyyatının vəziyyəti, yaradıcılıq axtarışları da ədəbiyyatşünaslığımızın nəzərindən qaçmamışdır.

1970-ci illərə qədər XIX əsr Azərbaycan ədəbiyyatının 90-cı illər mərhələsi kifayət qədər öyrənilməmişdir. M.F.Axundzadə ədəbi məktəbinin əsrin sonundakı davamçıları N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov yaradıcılığı müəyyən qədər tədqiqata cəlb olunsa da, mərhələ vahidi kimi, 1870-90-cı illərin tipoloji xüsusiyyətləri tədqiqatdan kənarda qalmışdı. Bu vacib problemi Xeyrulla Məmmədov "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan maarifçi-realist ədəbiyyatı" (1978) monoqrafiyasında ilk dəfə monoqrafik tədqiqat səviyyəsində ədəbiyyatşünaslığımıza gətirdi.

Azərbaycan sovet dramaturgiyası, o cümlədən, Sabit Rəhmanın komediyaları M.F.Axundzadə ilə başlayan milli dramaturgiyanın davamı idi. Dramaturgiyamız sovet dönəmində yeni keyfiyyətlər qazanmış, komediya janrı cəmiyyətin gündəlik həyatını göstərmək baxımından aktuallıq qazanmışdır. Arif Səfiyev 1960-80-ci illər dramaturgiyasını ümumilikdə belə xarakterizə edirdi: *"Son illər Azərbaycan dramaturgiyasının ümumi mənzərəsi belə fikri əsaslandırır ki, dramaturqlarımız dövrün əsas mövzularını müasir ideya-estetik tələblər səviyyəsindən tədqiq etməyə çalışmışlar. Ədəbiyyatda sovet adamının xarakterini açmağa, onun cəmiyyətin irəliyə doğru hərəkətindəki mövqeyini göstərməyə imkan verən mövzuların – "istehsalat", əmək və mənəvi axtarışlar mövzularının işlənməsi ümumiyyətlə dramaturgiyanın həyatla əlaqəsinin möhkəmləndiyini sübut edir"*[7].

Tofiq Hacıyev elm aləmində dilşünas alim kimi şöhrət qazansa da, bəhs etdiyimiz illərdə ədəbiyyatşünaslıq sahəsində də xeyli sayda tədqiqatlar aparmış, klassik və müasir ədəbi irsin dili, üslubu, poetik xüsusiyyətləri, dilin ədəbiyyatdakı funksiyası haqqında qiymətli əsərlər dərc etdirmişdir. Alimin "Yazıçı dili və ideya-bədii təhlil" (1979) əsəri dediklərimizə əyani sübutdur.

[7] Ədəbi proses – 77 / Red. heyəti: M.Z.Cəfərov, K.A.Talıbzadə, Q.X.Qasımzadə. – Bakı: Elm, – 1978. – s. 91-92.

1960-80-ci illər ədəbiyyatşünaslığının simalarından biri də Xalid Əlimirzəyevdir. Tədqiqatçı nəşr olunan xeyli sayda kitabın elmi redaktoru, ön sözünün müəllifi olmuşdur. “Bədii həqiqət uğrunda” (1984) kitabında alimin klassik sovet dövrü yazıçılarımızın yaradıcılığından, ədəbi tənqid, dramaturgiya və teatr məsələlərindən bəhs edən məqalələri toplanmışdır. Kitabda olan məqalələr “Klassik irs”, “Ədəbi tənqid”, “Poeziya”, “Nəsr”, “Teatr” başlıqları altında toplanmışdır.

Dövrün ədəbi-tənqidi mənzərəsinin zənginləşməsində Əkbər Ağayevin xüsusi xidməti var. Onun bir-birinin ardınca dövrü mətbuatda nəşr etdirdiyi məqalələr “Sənətkarlıq məsələləri” (1962) kitabında toplanmışdır.

Seyfulla Əsədullayev də 1960-80-ci illərdə ədəbiyyat-şünaslıqda öz sözünü deyən tədqiqatçılardan hesab olunur. Azərbaycanda sosialist realizmi məsələlərinin monoqrafik tədqiqi təşəbbüsü də professor Seyfulla Əsədullayevin adı ilə bağlıdır. Alimin “Sosialist realizminin tarixiliyi, nəzəriyyəsi və tipologiyası” (1969), “Erkən sovet ədəbiyyatında sosialist realizminin təşəkkülü” (1974), “Tarix, sənətkar, müasirlik” (1975), “Sosialist realizmi məcrasında” (1980), “Estetik ideal və sənətkarın ictimai fəallığı” (1981) monoqrafiyalarında sosialist realizminin fundamental problemləri tədqiqat predmeti kimi seçilib.

Akif Hüseynov “Müxtəlifliyin birliyi (sovet ədəbiyyatında milliliklə beynəlmiləlliyin dialektik vəhdəti)” (1983) kitabında milli ədəbiyyatların ideya-estetik xüsusiyyətləri, sosialist məzmunla milli forma arasındakı əlaqə, milliliklə ümumbəşəriliyin dialektik vəhdəti tədqiq olunur, milliliyin tarixi və bəşəri səciyyəsi yeni elmi meyarlar əsasında öyrənilirdi. Akif Hüseynov “Nəsr və zaman” (1980) kitabında bu mərhələnin təşəkkülünü zəruri edən, bədii fikrin yeniləşməsini şərtləndirən həyati və estetik amillərin elmi-nəzəri şərhini verirdi.

1960-80-ci illərdə ədəbiyyatşünaslıq sahəsində ardıcıl tədqiqat aparan elmi-nəzəri fikir sahiblərindən biri də Orucəli Həsənovdur. Onun “Ədəbiyyat və zaman” (1971), “Ədəbi qeydlər” (1961), “Yaradıcılıq üfüqləri” (1965), “Tarixilik və müasirlik” (1985)

əsərləri dövrün elmi-nəzəri fikrinin tədqiqi baxımından əhəmiyyətlidir.

1970-80-ci illərdə Azərbaycan ədəbi tənqidinin elmi-nəzəri səviyyəsinin güclənməsi ilə yanaşı, tənqidçi nüfuzunun bədii yaradıcılıqdakı rolu da genişlənirdi. Xüsusən, Qulu Xəlilov, Asif Əfəndiyev, Məsud Əlioğlu kimi tənqidçilər eyni zamanda cəsarətli, nüfuzlu söz sahibləri olduqlarını da təsdiq etdilər.

İkinci fəslin ikinci yarımfəsli **"Azərbaycan realizminin tarixinə, tipologiyasına elmi baxışın formalaşması"** adlanır. XIX əsrdən etibarən Azərbaycan ədəbiyyatında realizm öz mövqeyini möhkəmləndirib, A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh yaradıcılığı ilə ilk təşəkkül mərhələsinə daxil olan maarifçi-realist ədəbiyyatımız əsrin ikinci yarısında M.F.Axundzadə, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov bədii irsi ilə öz kamillik zirvəsinə daxil olmuşdu. Öz ənənələrini yaradan realizm XX əsrin əvvəllərində də mövcudluğunu davam etdirmiş, daha da formalaşmış, bədii üslubunu, obrazlar sistemini yaratmışdı.

Milli realizmin yaranması və təşəkkül tarixi Azərbaycan ədəbiyyatşünaslığının həmişə tədqiqat predmeti kimi götürülüb. Realizm tarixinə bu cür sistemli elmi yanaşma, həssas münasibət milli ədəbi-tarixi prosesin bütöv bir mərhələsinin spesifik cəhətləri, zəngin yaradıcılıq təcrübəsi və ədəbi-estetik axtarışları ilə şərtlənir.

Azərbaycan realizmi haqqında ilk sistemli fikir və mülahizələri milli maarifçi, realist tənqid konsepsiyasının yaradıcısı M.F.Axundzadə söyləmişdir. Akad. Kamal Talıbzadənin doğru qeyd etdiyi kimi, *"Azərbaycanda realizm məktəbinin əsasını qoyub, onun ədəbi prinsiplərini ilk dəfə müəyyən edən M.F.Axundovdur. Odur ki, Axundovdan sonra yeni realist məktəbin estetik normalarının necə təbliğ olunması və hansı istiqamətdə inkişaf etməsi həmişə ədəbi fikrimizi maraqlandırmış və düşündürmüşdür"*[8].

Sovet hakimiyyəti dövründə realizmin milli ədəbiyyatlardakı regional xüsusiyyətləri, müştərək, tipoloji keyfiyyətləri bir qayda

---

[8] Talıbzadə, K.A. Sənətkarın şəxsiyyəti / K.A.Talıbzadə. – Bakı: Yazıçı, – 1978. – s. 156.

olaraq, həmişə ədəbiyyatşünaslığın diqqət mərkəzində dayanıb. Çünki sovet ədəbiyyatının yeganə yaradıcılıq metodu olan sosialist realizminin taleyi, müxtəlif ədəbiyyatlarda öz təsir qüvvəsini uzun müddət saxlayıb-saxlamayacağı hələ sual altında olduğundan, sovet ədəbiyyatşünaslığında realizmin mahiyyəti, spesifikası və tipologiyası ətrafında çoxsaylı diskussiyalar aparılmış, elmi müşavirə və konfranslar çağırılmışdı. Xüsusən, bu sahədə Qərbi Avropa ədəbiyyatşünasları ilə marksist sənət nəzəriyyəçiləri arasında siyasi-ideoloji, məfkurəvi mübarizə illər boyu davam edib.

Ümumittifaq miqyasında realizm probleminin daha geniş, əhatəli, vahid ədəbi-estetik prinsiplər daxilində öyrənilməsi XX əsrin 70-ci illərində daha da vüsət aldı. 1960-70-ci illərdə problemlə bağlı ümumittifaq miqyasında elmi sessiya və müşavirə çağırıldı, xeyli sayda tədqiqat əsərləri meydana çıxdı. XX əsrin 70-ci illərində realizmin mərhələ təsnifatı Bakıda (1972), Daşkənddə (1975), Alma-Atada (1976), Kazanda (1978) keçirilən realizm müşavirələrində geniş müzakirə olunmuş, ayrı-ayrı türkdilli xalqların ədəbiyyatında realizmin tarixi təcrübəsi ümumiləşdirilmişdir.

Bu cəhətdən 1972-ci ildə Bakıda keçirilən “Sovet Şərqi xalqlarının ədəbiyyatında realizm problemi” mövzusundakı ümumittifaq müşavirəsindən ayrıca bəhs etməyə ehtiyac var. Sovet hakimiyyəti dövründə Şərq ədəbiyyatlarında realizm problemi elə sovet şərqi xalqlarının ədəbiyyatında realizm kimi qəbul edilir və bu cür də dərk olunurdu.

Milli müstəqillik dövründə realizmə, romantizmə və başqa yaradıcılıq metodlarına münasibət dəyişib. Milli dövlətçilik ideologiyası, humanitar təfəkkürün yeni prinsipləri bu məsələni daha da aktual edib. Həmin konsepsiyaya söykənərək realizmin mərhələlərinə, onun tipoloji cəhətlərinə yenidən qayıtmağa ehtiyac var.

Dissertasiyanın üçüncü fəsli **“Milli ədəbiyyatşünaslıqda klassik ədəbi irs konsepsiyası”** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. Üçüncü fəslin birinci yarımfəsli **“1960-cı illər ədəbiyyatşünaslığının klassik ədəbi irs təlimi”** adı altında təqdim olunub. Klassik ədəbi irsin toplanması, öyrənilməsi və nəşri bütün

dövrlərdə milli ədəbiyyatşünaslığın vəzifələri sırasında olub. Çünki bu ədəbiyyatşünaslığın təməl prinsiplərindən biridir. Odur ki, ilk ədəbiyyatşünas F.Köçərlidən başlayaraq, bu günə kimi ədəbiyyatşünaslığımız klassik irsin sistemli şəkildə tədqiqini davam etdirirdi.

Əsrin ilk onilliklərində Azərbaycan ədəbiyyatşünaslığında, elmi-nəzəri fikrində klassik irsin öyrənilməsi aktual bir məsələ kimi ortaya çıxır. Artıq 1960-cı illərdə sovet hakimiyyətində siyasi iqlim nisbətən yumşaldıldı. Klassik irsin tədqiqindəki məhdudiyyətlər nisbətən aradan qaldırıldı.

1960-cı illərdə yazılan monoqrafiyalara, məqalələrə, portret-oçerklərə diqqət etsək, görərik ki, bu əsərlərdə fakt-sənəd bolluğu daha çox diqqəti cəlb edir. Bu cəhətdən F.Qasımzadənin "Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı" (1962) monoqrafiyası daha çox fərqlənir.

1960-cı illərin ədəbiyyatşünaslığımızın nailiyyətlərindən söz düşəndə, şübhəsiz ki, Bəkir Nəbiyevin "Firidun bəy Köçərli" monoqrafiyasının adını çəkməmək olmur. Bəkir Nəbiyev əsas diqqəti ədibin rus dilində yazdığı "Azərbaycan tatarlarının ədəbiyyatı" əsərinə yönəldib. *"Müəllif bu əsərin ədəbiyyatımızın inkişaf mərhələlərini aydınlaşdırmaq, sənətkarların yaradıcılıqlarının ümumi cəhətlərini təyin etmək baxımından yüksək qiymətə layiq olduğunu göstərir"*[9].

Əvvəlki onilliklərdə özünü göstərən vulqar sosioloji fikirlər "Azərbaycan sovet ədəbiyyatı tarixi oçerkləri"ndə özünü göstərirdi. Klassik irsə nihilist münasibət yenə də davam edirdi. Bu son iki fəsildə daha çox özünü göstərirdi. Marksist ideologiyanı qəbul etməyən yazıçılar "mürtəce" sənətkarlar kimi, XX əsrin əvvəllərində ədəbiyyatımızda əsas yaradıcılıq cərəyanlarından olan romantizm isə "mistik, saxta romantik təmayül" kimi qiymətləndirilirdi. Oçerklərdə C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev, N.Vəzirov, S.S.Axunodov, A.Şaiq, M.S.Ordubadi, T.Şahbazi sovet ideologiyasına xidmət edən sənətkarlar, M.Hadi və H.Cavid isə hələ də

---

[9] Məmmədov, K.D. İlk ədəbiyyat tarixçimiz // Ədəbiyyat və incəsənət. – 1985, 18 yanvar, s. 6.

sovet quruluşunu qəbul etməyə hazır olmayan şairlər kimi təqdim olunur.

Məlumdur ki, 1960-cı illərə qədər Azərbaycan dramaturgiyası artıq özünü təsdiq etmiş, ədəbiyyatımızın əsas janrı kimi tanınmışdı. Artıq onun elmi tarixini yaratmaq zərurəti meydana çıxmışdı. Bu vacib ədəbi missiyanı Əli Sultanlı öz üzərinə götürdü və onun "Azərbaycan dramaturgiyasının inkişaf tarixindən" (1964) əsəri milli dramaturgiyanın yaşayan ənənələrini göstərmək baxımından əhəmiyyətli idi.

Müasir ədəbiyyatşünaslığın klassik ədəbi irsə münasibəti ənənəvi ədəbiyyatşünaslığın münasibətindən xeyli dərəcədə fərqlənir. Bu mənada ki, çağdaş ədəbiyyatşünaslıq klassik ədəbi irsdə daha çox sənətkarlıq məsələlərinə, bədii-estetik dəyərlərə daha çox üstünlük verir. Digər tərəfdən müasir ədəbiyyatşünaslıq ədəbi irsə azərbaycançılıq məfkurəsindən yanaşır, bədii irsdə milli təfəkkürə önəm verir.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli **"İrihəcmli monoqrafiyaların yaranmasını şərtləndirən ictimai-ədəbi amillər"** adlanır. Mükəmməl ədəbiyyat tarixinin yaranması birbaşa monoqrafik tədqiqatlarla bağlıdır. Bunsuz sistemli ədəbiyyatı tarixi yaratmaq mümkün deyil. 1940-cı illərdə meydana çıxan "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi", 1950-ci illərin sonu, 1960-cı illərin əvvəllərində ədəbi ictimaiyyətə təqdim olunan üççildlik "Azərbaycan ədəbiyyatı tarixi" göstərdi ki, bu sahədə hələ də xeyli boşluqlar var, bir çox sənətkarların həyat və yaradıcılığı hələ də kifayət qədər öyrənilməyib. Ədəbi metodlar, cərəyanlar, təriqətlər haqqında aydın təsəvvür yoxdur. Yaranan çətinlikləri aradan qaldırmaq üçün müxtəlif nəsillərdən olan ədəbiyyatşünaslar monoqrafik tədqiqatlara üz tutdular. M.Arif, M.C.Cəfərov, M.Quluzadə, M.C.Paşayev, Ə.Mirəhmədov, K.Talıbzadə, M.Seyidov, K.Məmmədov və başqaları klassik ədəbiyyatımız, milli folklorumuz haqqında qiymətli əsərlər yazdılar.

1980-ci illərdə imzası mətbuatda daha çox görünən Əziz Mirəhmədov "Azərbaycan ədəbiyyatına dair tədqiqlər" (1983) əsəri ilə bir daha sübut etdi ki, əsil ədəbiyyatşünasın yolu gərgin əməkdən,

inadlı axtarışlardan keçir. Buna qədər o "Sabir", "Məhəmməd Hadi", "Azərbaycanın Molla Nəsrəddini" monoqrafiyalarını yazmışdı.

1960-70-ci illər M.Arif yaradıcılığının da qaynar, məhsuldar dövrüdür. Alimin "Səməd Vurğunun dramaturgiyası" (1964) əsəri şairin ədəbi irsini hərtərəfli şəkildə əhatə edən fundamental monoqrafiyadır. Əsər şairin bədii irsinin mühüm bir hissəsi olan dramaturgiyasının xüsusiyyətlərini, ideya-fəlsəfi, bədii estetik xüsusiyyətlərini aşkara çıxarmaq baxımından əlamətdardır.

1950-ci illərin mürəkkəb, təzadlı, keşməkeşli ədəbi mühitində Bəkir Nəbiyev tənqidçi kimi tanınsa da, fərdi üslubu, professional tənqidçilik fəaliyyəti 1960-cı illərdən başlayır. Bu dövrdə o, xeyli sayda əsərləri təhlil edir və onlar haqqında öz fikirlərini müxtəlif məqalələrdə nəşr etdirirdi.

Yaşar Qarayev "Faciə və qəhrəman" əsəri ilə ədəbiyyatşünaslığımızda yeni bir cığır açdı. Burada C.Cabbarlının "Solğun çiçəklər", "Aydın", "Oqtay Eloğlu", "Od gəlini" və başqa romantik əsərləri geniş aspektdə tədqiqata gətirilir, Azərbaycan dramaturgiyasının müxtəlif mərhələlərinin spesifik xüsusiyyətləri aydınlaşdırılır, XX əsr dramaturgiyamızın dünya dramaturgiyasında yeri və rolu aşkara çıxarılırdı. *"Yaşar Qarayev müasir ədəbi prosesi diqqətlə izləyən, bədii düşüncənin nəzəri problemləri ilə müntəzəm məşğul olan, çoxəsrlik bədii sərvətimizin də ən yaxşı ənənələrini tədqiq və təbliğ edən istedadlı tənqidçi və ədəbiyyatşünas kimi tanınmışdır... Yaşar vətəndaşlıq vəzifəsi kimi professional tənqidçiliyi özünə əsas ixtisas seçmişdir... Əsil ideyalı tənqid odur ki, orada yazıçı şəxsiyyəti, yazıçının gerçəkliyə münasibəti ilə yanaşı tənqidçi şəxsiyyəti, onun tənqidçi idealı, həyat həqiqətinə və bədii həqiqətə münasibəti də aydın ifadəsini tapmış olsun. Bu keyfiyyət Yaşarın tənqidində güclüdür"*[10].

Sosialist realizmi problemləri haqqında yazılan monoqrafik tədqiqatlardan Asif Əfəndiyevin "Предистория и становление социалистического реализма в Азербайджанской литературе" (1971) əsəri xüsusilə diqqəti cəlb edir. Burada XX əsr Azərbaycan

---

[10] Qarayev, Y.V. Poeziya və nəsr / Y.V.Qarayev. – Bakı: Yazıçı, – 1979. – s. 3-4.

tənqidi realizminin və romantizminin sosialist realizminin formalaşmasında mühüm rol oynamış bəzi xüsusiyyətləri, 1920-ci illər ədəbiyyatında yeni estetik ideal, miqyaslı qəhrəmanlar və situasiyalar, "kiçik" qəhrəmanın böyük dünyaya çıxması, Azərbaycanda sosialist realizminin təşəkkülündə rus sovet ədəbiyyatının rolu araşdırılmışdır.

1960-cı illərdə tənqidə gələn Şamil Salmanov Azərbaycan ədəbiyyatşünaslığının ən tanınmış və nüfuzlu simalarından biridir. O, təxminən 50 il davam edən elmi-ədəbi fəaliyyəti ilə ədəbiyyatşünaslığımızda öz imzasını qoyub, klassik və müasir Azərbaycan ədəbiyyatının fundamental problemlərinin təhlili ilə elmi-nəzəri səviyyəsinin yüksək olduğunu sübut edib.

Müasir dövrdə Azərbaycan ədəbiyyatşünaslığının ən aparıcı, ən öndə gedən simalarından biri, çoxsaylı tədqiqatları ilə nəinki ölkəmizdə hətta onun hüdudlarından kənarda da sayılıb seçilən elm adamlarından biri olan akademik İsa Həbibbəylinin elmi fəaliyyəti çoxşaxəli və zəngindir. Onun "Ədəbi yüksəliş" (1985), "Cəlil Məmmədquluzadə" (1987), "Cəlil Məmmədquluzadə və ədəbi mühiti" (1990), "XX əsr Azərbaycan yazıçıları" (1992), "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" (1996), "Ustad Məhəmmədhüseyn Şəhriyar" (1999), "Məhəmmədağa Şaxtaxtlı" (2011), "Böyük ədəbiyyat nəhəngi" (2012), "Akademik Səməd Vurğun Vəkilov" (2015) və s. əsərləri ədəbiyyatşünaslıq tariximizin çoxşaxəli problemlərinə həsr olunub. "Romantik lirikanın imkanları" (1984), "Ədəbiyyat nəzəriyyəsi" (metodik göstəriş) (1985) və bu kimi bir sıra kitabları ədəbiyyat nəzəriyyəsinin ən mükəmməl örnəkləri sırasındadır.

1960-80-ci illərdə uzun illərdir tədqiqata möhtac olan ədəbiyyat tariximizə yeni ruh, fərqli baxış müstəvisi gətirildi. Artıq bəhs etdiyimiz kimi bu otuz il bir-birindən fərqli illər idi. Ədəbiyyatşünas alimlər də dövrün qoyduğu tələblərə uyğun davranaraq ədəbiyyat tariximizi daha müasir, daha sistemli, daha ardıcıl araşdırmağa çalışırdılar, buna aparan əsas yol da ayrı-ayrı sənətkarların həyat və yaradıcılığına həsr olunan monoqrafiyalar idi. Bu baxımdan tədqiq edilən illərdən xeyli öncə də və xeyli sonra da

monoqrafiya yaradıcılığı prioritet məqam kimi diqqət mərkəzində idi.

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli **"Bədii estetik dəyərlərə ədəbiyyatşünaslıqda verilən qiymət"** adlanır. 1980-ci illərdə ədəbiyyatşünaslığımızda mifə, tarixi keçmişə qayıdış kütləvi hal aldı. Bu milli özünüdərkin, milli oyanışın ilkin mərhələsi kimi özünü göstərirdi. Mif bütün dövrlər üçün yaddaşdır, tarixdə daşlaşan milli-mənəvi dəyərlərdir. Hansı xalqın mifologiyası, folkloru qədim olubsa, həmin xalqın ədəbiyyatının sonrakı ədəbi mərhələləri də güclü olub. Bu cəhətdən türk mifoloji sisteminin qədimliyi, zənginliyi danılmazdır.

Mirəli Seyidov ədəbiyyatşünaslığımızın həmin sahəsinin yaranması və təşəkkülündə xüsusi rol oynayıb. O, "Azərbaycan xalqının söykökünü düşünərkən" (1989) monoqrafiyasında mifik obraz, rəmz, simvollar sisteminə əsaslanaraq, türk etnogenezisin mahiyyətini üzə çıxarıb, tarixi hadisələrdəki, qədim yazılardakı, sənət abidələrindəki ümumi qanunauyğunluğu təfəkkür prizmasından keçirərək ümumtürk mədəni-mənəvi dəyərlərinin müştərəkliyi nəticəsinə gəlmişdir. *"Azərbaycanlıların soykökləri deyərkən biz mərdlikləri, qoçaqlığı ilə çevrəyə səs salan xalqın soykökündə duranları, onların ilkin biçimlənməyə doğru yönəlmiş görüşlərini, inamlarını, fikir konsepsiyasını – düzümünü, bunları yaradan mürəkkəb durumu, mifik təfəkkür və onunla bağlı ictimai, yaradılış görüşlərini göz qarşısına gətiririk. Hər bir xalqın soykökündə duran soy, qəbilə, qəbilə birləşməsinin təfəkküründə elə düşünmə, çevrəyə elə münasibət, inamlar aləmində, zövqündə elə nəsnələr var ki, onları, belə demək mümkünsə, "qəbilənin qan yaddaşı" adlandırmaq olar"*[11].

Bütün dövrlərdə aktual, yeni, müasir və mübariz olan M.Ə.Sabir yaradıcılığı 1980-ci illərdə də ədəbiyyatşünaslığımızın diqqətindən yayınmırdı. Xüsusən, 1988-ci ildə xalq azadlıq hərəkatı başlayanda şairin satiralarına daha çox müraciət olunurdu. Bu

---

[11] Seyidov, M.M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.M.Seyidov. – Bakı: Yazıçı, – 1989. – s. 8.

mənada Abbas Zamanovun xüsusi mövqeyi və çəkisi var. Alimin tədqiqatlarının böyük bir qismi M.Ə.Sabir yaradıcılığı ilə bağlıdır.

Yekun olaraq deyə bilərik ki, 1980-ci illərdə Azərbaycan ədəbiyyatşünaslığı qarşıya qoyulan vəzifənin öhdəsindən gəldi, klassik ədəbi irsin tədqiqində zəngin təcrübə topladı, ədəbi-nəzəri sistemini formalaşdırdı, ən əsası, milli oyanış, milli təfəkkürün formalaşmasında tarixi vəzifəsini yerinə yetirdi.

Ədəbi-tarixi və nəzəri materiallara, ədəbi-nəzəri fikrin təcrübəsinə söykənərək dissertasiya boyu qaldırılan problemlər ümumiləşdirilərək aşağıdakı nəticələr əldə olunmuşdur.

1. Hər şeydən əvvəl 1960-80-ci illər mərhələ vahidi kimi Azərbaycan ədəbi-nəzəri fikrinin yüksəliş dövrüdür. Yeni, müasir ədəbi-estetik meyar axtarışlarında tənqid iki cəhətə daha çox diqqət yetirirdi: a) ideoloji-siyasi prinsiplərdən nisbətən uzaqlaşmaq; b) sosioloji meyilli təmayüllərdən sənətkarlıq, poetika problemlərinə dönüşü təmin etmək. Nəticə kimi deyə bilərik ki, ədəbi-estetik fikir bu vəzifəni kifayət qədər həyata keçirə bildi.

2. 1960-80-ci illər ədəbi tənqidi öz vəzifəsini layiqincə yerinə yetirən, dərin elmi-nəzəri, fəlsəfi-estetik hazırlığı olan bir tənqid idi. Tənqidçi şəxsiyyətinin bütövlüyü, onun ədəbi-tarixi prosesə fəal təsiri, intellektual ümumiləşdirmə və qiymətləndirmə gücünə malik olması göstərirdi ki, milli tənqid öz vəzifəsini yaxşı dərk edir.

3. Məlum dövr ədəbiyyatşünaslığında fəlsəfi başlanğıcın güclənməsi, başlıca amil kimi nəzəri cəlb edirdi. Ədəbiyyatın fəlsəfəsini açmaq, bədii yaradıcılığın fəlsəfi məzmununu ümumiləşdirmək aktual bir vəzifə kimi qarşıya çıxırdı.

4. Ədəbi-tarixi prosesdə şəxsiyyət amili önə çıxdı. Sov.İKP-nin 1972-ci il "Ədəbi-bədii tənqid haqqında" qərarından sonra tənqidçinin ədəbi prosesi təşkil etmək funksiyası gücləndi.

5. Estetik fikir bədii yaradıcılığa onun mənsub olduğu xalqın mənafeləri baxımından yanaşmağa üstünlük verdi. Ənənə və varislik prinsipi həm çağdaş, həm də klassik ədəbiyyatın tədqiqində əsas amil rolunu oynadı.

6. Ədəbiyyatın milli müqavimətini gücləndirmək ədəbi-nəzəri fikrin əsas qayğısına çevrildi. Bədii yaradıcılığın artan milli

müqavimətini tənqid yaxşı görürdü. Bədii yaradıcılıqdakı milli müqavimətin tənqiddəki dərki o qədər də ləngimədi, tənqid müstəvisində milli azadlıq, milli özünüdərk ictimai şüura yeridilməyə başladı.

7. Marksist estetikanın "müsbət qəhrəman" konsepsiyası getdikcə əhəmiyyətini itirməyə başladı. Anarın, Elçinin, İ.Məlikzadənin, İ.Hüseynovun yeni əsərlərində "xırda adamlar"ın gündəlik həyatı, ictimai həyatda mövqeyi önə çıxdı. Ədəbi tənqid də bədii yaradıcılıqdakı bu novatorluğu vaxtında aşkar edə bildi. Ədəbi tənqid "vintcik" mövqeyində dayanmayaraq öz mübariz ruhunu vaxtında səfərbərliyə almağı bacardı.

8. Azərbaycan ədəbi-nəzəri fikri öz tarixi, ənənəsi olan bir elm sahəsidir. Əsası M.F.Axundzadə ilə başlayan professional Azərbaycan ədəbi tənqidinin öz meyarları olub. Prinsipiallıq, obyektivlik, sərtlik, kəskinlik tənqid ənənəsində sonrakı onillikdə də özünü göstərib. 1960-cı illərdə siyasi iqlimin yumşalması ədəbi-nəzəri fikrin öz ənənəsinə qayıtmasına şərait yaratdı. Ədəbiyyatşünaslıq prinsipiallığını, obyektivliyini, müstəqilliyini nisbətən bəyan etməyə macal tapdı.

9. Əgər əvvəlki dövrlərdə ədəbi tənqid daha çox cari ədəbi prosesin problemləri ilə qayğılanırdısa, 1960-80-ci illərdə ədəbiyyatşünaslığın vəzifələrini də yerinə yetirməyə başladı. B.Nəbiyev, K.Talıbzadə, M.C.Cəfərov, M.Arif, Y.Qarayev və başqa tənqidçilər monoqrafik tədqiqatlara üstünlük verdi. Yeni ədəbiyyat tarixinin yaranması üçün ilkin şərtləri yerinə yetirməyə başladılar. Bu həm də ədəbiyyat tarixinin, ədəbi tənqidin, ədəbiyyat nəzəriyyəsinin qovuşmasından xəbər verirdi.

10. Ədəbiyyatşünaslıqla publisistikanın qovuşması, vəhdəti 1960-80-ci illər ədəbi-nəzəri fikrinin gözə görünən tərəflərindən biri idi. Bu ədəbi-nəzəri fikrin ictimai həyata daha da yaxınlaşmasına, nüfuz etməsinə səbəb oldu. Belə nəticəyə gəlirik ki, ədəbi tənqidlə publisistik üslubun vəhdəti tənqidin daha oxunaqlı, kütləvi olmasına şərait yaratmışdır.

11. Müstəqillik dövrü ədəbi-nəzəri fikrində tənqidlə ədəbiyyatşünaslığın sərhədləri "itib", xalis tənqidçi və yaxud xalis

ədəbiyyatşünas tipinə çox az təsadüf olunur.

Cəmiyyətin sürətli inkişafı böyük miqyasda baş verən hadisələr, qloballaşma, sivilizasiyaların qovuşması mühitində ədəbiyyat və sənətin, zamanın gerçəkliklərini dərk etmək vəzifəsini irəli sürür, çətin şəraitdə ədəbi tənqid və ədəbiyyatşünaslıq eyni mövqedən, vahid cəbhədən çıxış etməli olur. Şübhəsiz ki, həmin prosesin əsası 1960-80-ci illərdən qoyulmağa başlayıb. Məsələn, M.C.Cəfərovun, K.Talıbzadənin, Y.Qarayevin, Ş.Salmanovun daha çox tənqidçi və yaxud ədəbiyyatşünas olduğunu müəyyənləşdiməkdə çətinlik çəkirik.

12. Ədəbi-tarixi fakt və onun yüksək ədəbi-nəzəri səviyyədə təqdim olunması ədəbiyyatşünaslığın mühüm göstəricisi kimi özünü göstərir. Ədəbi-tarixi fakt sadəcə olaraq faktdır. Bu faktı elmin faktına çevirmək ədəbiyyatşünasların işidir. Nəticə olaraq qeyd edə bilərik ki, 1960-80-ci illər ədəbi-nəzəri fikrində nəzəri təfəkkür getdikcə gücləndi. Bu onun müstəqil elm sahəsi kimi nüfuzunu artırdı. Yazıçı şəxsiyyəti kimi tənqidçi şəxsiyyəti də ədəbi prosesdə müstəqillik qazandı.

13. Mifik təfəkkür hər bir xalqın müdrikliyinin, həyat təcrübəsinin, dünya duyumunun göstəricisidir. Mifik yaddaşı güclü olan xalqların ədəbiyyatının sonrakı inkişaf mərhələləri də zəngin olub. Türk xalqları öz mifik yaradıcılığı ilə fəxr edə bilər. 1960-80-ci illər ədəbi-nəzəri fikri bədii yaradıcılığı türk mifik təfəkkürünə yönəltdi, mifik yaradıcılığın bədii-estetik sistemini müəyyənləşdirdi, mifə müraciətin bədii əsaslarını aydınlaşdırdı.

**Dissertasiyanın əsas müddəaları tədqiqatçının aşağıdakı elmi məqalələrində, respublika və beynəlxalq konfransların məqalələrində öz əksini tapmışdır:**

1. "Azərbaycan ədəbiyyatında realizm" müşavirəsinin (1969-cu il) elmi nəticələri // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika konfransı. – Bakı, – 2015, – s. 436-437
2. XX əsrin 60-ci illərində Azərbaycan ədəbi-nəzəri fikri. // SDU-nun "Elmi xəbərlər" jurnalı. Sosial və Humanitar elmlər bölməsi. – Sumqayıt, - 2016. №4. – s.30-33
3. Milli ədəbiyyat tarixlərində ədəbi dəyərlər // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. – Bakı, - 2016. № 4, – s. 221-223
4. Ədəbiyyatşünaslığımızda monoqrafik tədqiqatlara meylin güclənməsi // SDU-nun "Elmi xəbərlər" jurnalı. Sosial və Humanitar elmlər bölməsi. – Sumqayıt, – 2017, №3, – s.31-35
5. The formation of view in history and typology of Azerbaijan realism // European journal of natural history. – Moscow, –2017. №3, – s. 24-30
6. Ədəbi tənqidin özünütəsdiq, özünüifadə mərhələsi // Kitabşünaslıq və nəşriyyat işi. Elmi-nəzəri və təcrübi jurnal. – Bakı, –2017. №1, – s.63-67
7. Vaxtdan uca // "Azərbaycan" jurnalı. –Bakı, –2017. №11, – s.188-190
8. Роль профессионализма критика в литературном процессе // Науковий вісник міжнародного гуманітарного університету. Серія: філологія. Збірник наукових праць. – Одеса, – 2017. Випуск 28. – s.78-81
9. Üçcildliyin ikinci cildində ədəbi-tarixi prosesin spesifik xüsusiyyətləri // Культурология, искусствоведение и филология: современные взгляды и научные исследования. I международная научно-практическая конференция. – Москва, – 2017. №1 (1), – s.81-88
10. "Sovet Şərqi xalqlarının ədəbiyyatında realizm problemləri" müşavirəsinin elmi nəticələri // "Azərbaycanşünaslığın

aktual problemləri" mövzusunda VIII beynəlxalq elmi konfrans. – Bakı, – 2017. – s. 510

11. Azərbaycançılıq ideyalarının inkişafında Heydər Əliyevin rolu (1970-80-ci illər Azərbaycan ədəbiyyatşünaslığı əsasında)// Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu mövzusunda beynəlxalq elmi konfrans. – Sumqayıt, – 2018. – s. 459-460

12. Akademik Tofiq Hacıyevin elmi irsində bədii əsərin dil və üslub məsələləri // Elmlərarası inteqrasiya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər mövzusunda beynəlxalq elmi konfransı. – Sumqayıt, – 2019. – s. 371-372

13. Akademik İsa Həbibbəylinin tədqiqatlarında XX əsrin 70-80-ci illər Azərbaycan ədəbiyyatşünaslığının elmi-nəzəri problemləri // Azərbaycan ədəbiyyatşünaslığı. – Bakı, – 2020. №2, – s.192-197

Dissertasiyanın müdafiəsi 25 iyun 2021 -ci il tarixində saat 13:00 Sumqayıt Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ5008, Sumqayıt şəhəri, 43cü məhəllə. Sumqayıt Dövlət Universiteti

Dissertasiya ilə Sumqayıt Dövlət Universietinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Disstertasiya və avtoreferatın elektron versiyaları Sumqayıt Dövlət Universietinin rəsmi saytında (www sdu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 22 may 2021 il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.05.2021

Kağızın formatı: 60*84/$^{1/16}$

Həcm: 50447 işarə sayı

Tiraj: 100